***İsmayılova Ş.H.***

# URMİYANIN TUNC DÖVRÜ GİL FİQURLARI

Urmiya gölü hövzəsində Yanıqtəpə, Göytəpə, Haftavan təpə kimi çoxtəbəqəli qədim yaşayış yerlərində XX əsrin ortalarında aparılan arxeoloji qazıntılar nəticəsində məişət və təsərrüfatda istifadə olunmuş müxtəlif saxsı qablar, əmək alətləri, taxıl qalıqları ilə birlikdə zoomorf gil fiqurlar da aşkar olunmuşdur.

Bu materiallar göstərir ki, e.ə.IV-II minilliklərdə Urmiya gölü hövzəsinin qədim etnoslarının təsərrüfatında əkinçilik və maldarlıq həlledici rol oynamışdır. Urmiya gölü ətrafı ərazilərinin əlverişli coğrafi şəraiti, mülayim iqlimi, münbit torpaqları və su mənbələri bu qədim mədəniyyət diyarında əkinçiliyin inkişaf etməsinə imkan yaratmışdır. Qədim Urmiyanın əkinçi əhalisi qoşqu qüvvəsi kimi iri buynuzlu malqaradan istifadə etmişlər. Göytəpə, Haftavan qədim yaşayış yerlərinin ilk və orta tunc dövrü mədəni təbəqələrində əldə olunan it, at və öküz sümükləri də bunu sübut edir.

Urmiya hövzəsində tunc dövründə aparıcı təsərrüfat sahələrindən biri də maldarlıq olmuşdur. Hər iki aparıcı təsərrüfat sahələrinin intensiv inkişafı sənətkarlığın bir sıra növlərinin, o cümlədən dulusçuluğun da təkamül tapmasına səbəb olmuşdur.

Urmiya dulusçuluq mərkəzlərində, məişətdə əkinçilik və maldarlıq təsərrüfatı sahəsində müxtəlif məqsədlər üçün istifadə olunan gil məmulatları istehsal edilmişdir. Maldarlıqla bağlı gil qabların istehsal prosesində sənətkalar tunc dövrünün inamlarına və ideoloji düşüncələrinə müvafiq olaraq müxtəlif gil heyvan fiqurlar düzəltmişlər. Bu fiqurların meydana gəlməsi çox ehtimal ki, qədim insanların həyatında həlledici rol oynamış və nəticədə totemə çevrilmiş heyvanlarla bağlı olmuşdur.

Qədim Azərbaycanda gündəlik təsərrüfat həyatı ilə, eləcə də, maldarlıqla bağlı təsviri incəsənət nümunələri də yaradılmış və qayalar üzərində həkk edilmişdir. Bu qayaüstü təsvirləri arasında heyvan rəsmləri üstünlük təşkil edir. Gəmiqaya, Qobustan, Kəlbəcər, Abşeron və Cənubi Azərbaycanda Qaradağ qaya üstü rəsmləri xırda buynuzlu mal-qara, it və çoban rəsmlərinin təsvir olunduğu ov səhnələri buna misaldır. Qədim təsviri incəsənət nümunələri bədii tərtibatlı saxsı məmulatı üzərində qravüra üsulu il əvə yapma bəzəklər şəklində verilmişdir. Haftavan və Göl təpə qədim yaşayış yerlərinin orta tunc ddvrünə aid mədəni təbəqələrində əldə olunmuş boyalı saxsı məmulatı at, it, keçi, qoyun, arabaya qoşulmuş at rəsmləri ilə bəzədilmişdir.

Göytəpə qədim yaşayış yerinin Kür-Araz mədəni təbəqəsinin alt laylarından beş ədəd müxtəlif zoomorf gil fiqurlar aşkar olunmuşdur. Bunların bəziləri öküz fiqurlarıdır (şək.1). Gil fiqurları tünd qəhvəyi-boz gildən düzəldilmiş, azca cilalanmışdır. Buynuzlu təsvir olunan öküz fiquru canlı təsəvvür yaradır. Öküz başını bir qədər yuxarıya qaldırmış irəliyə baxan vəziyyətdə tutmuş, şiş uclu buynuzları qabağa doğru uzanır. Bədəni canlı, qıçları və bud hissələri dolu görkəmə malikdir. Hər iki tərəfdə çiyni üzərində üç nöqtəvari oyuq vardır. Öküz fiqurunun gözləri iki oyuq vasitəsilə göstərilmişdir. Onun burnu üzərində də oyuq vardır. Bu tip öküz fiquru Naxçıvan ərazisindəki Maxta ilk tunc dövrü qədim yaşayış yerindən məlumdur. Maraqlıdır ki, Maxta fiqurlarının da çiyni üzərində simvolik məna kəsb edən oyuqlar vardır (1, 152). Başqa bir gil heyvan fiquru boz gildən düzəldilmiş, hamarlanmışdır. Hər iki tərəfdə çiynində bir-biri üzərində üç oyuq vardır (şək.2).

B.B.Piotrovski çiyin hissəsində deşiyi olan öküz fiqurlarının araba modellərinə qoşulmaq üçün düzəldildiyini söyləmişdir (7, 6). Öz fikrini əsaslandırmaq üçün o, digər heyvan fiqurları üzərində deşiklərə rast gəlinmədiyini göstərir. O.H.Həbibullayev, T.A.Bünyadov, A.İ.Ələkbərov bu fikirlə razılaşaraq, Naxçıvanın Kültəpə, Mingəçevirin eneolit dövrü dəfn yerlərindən araba modellərinin taplması ilə təsdiq olunduğunu göstərirlər.

A.İ.Ələkbərov öküz fiqurlarının çiyin hissələrindəki deşiklərdən ip keçirildiyi barədə mülahizə irəli sürmüşdür (3, 89). Tədqiqatçının fikrincə Qobustanın qayaüstü rəsmləri arasında boynunda ip təsvir olunmuş öküz rəsmləri bu fikri təsdiq edir. Lakin belə bir təqdirdə ip keçirilən oyuqların kənarları sürtülmüş olmalı idi. Belə əlamətlərə öküz fiqurları üzərində rast gəlinmir.

Arxeoloji ədəbiyyatda mövcud olan başqa bir fikrə görə, torpağın becərilməsində insan əməyini yüngülləşdirən öküzlərdən qoşqu qüvvəsi kimi istifadə olunması nəticə etibarilə bu heyvana səcdə olunmasına və dini ayinlərlə bağlılığına gətirib çıxarmışdır (3, 89). Bizcə S.Aşurovun qədim tayfaların iri buynuzlu qaramala güc, qüvvə simvolu kimi baxması və gil fiqurlarından amulet kimi istifadə olunması (4, 68) fikri ilə razılaşmaq olar. Gil fiqurlarından biri qırmızı gildən düzəldilmişdir. Fiqurun ayaqları düzdür. Onun qarnı üzərində bir oyuq vardır. Fiqurun başı qırılmışdır. Lakin ümumi formasına görə qoyun fiquru olduğunu söyləməyə imkan verir (şək.3).

Zoomorf gil fiqurların dini mərasimlər zamanı sındırılması barədə olan fikirlər fikrimizcə yanlışdır. Belə ki, Urmiya gölü hövzəsinin tunc dövrü abidələrində məlum olan gil fiqurlar qırılmamışdır.

Zoomorf gil fiqurları Haftavan qədim yaşayış yerinin orta tunc dövrünə aid mədəni təbəqəsindən də əldə olunmuşdur. Bunlar iri buynuzlu öküz, it fiqurlarıdır. Haftavanın gil heyvan fiqurları hərəkət dinamikasında canlı təsəvvür yaradan şəkildə hazırlanmışdır. Gil fiqurlarından biri qoşa buynuzludur. Onun bədəni dolu görkəmə malik, ayaqları düzdür (şək.4).

Haftavan qədim yaşayış yerinin orta tunc dövrü təbəqəsindən əldə olunmuş zoomorf gil fiqurları arasında it fiqurları da vardır. Bu fiqurunun yalnız bir ayağı salamat qalmışdır. Başının forması bunun it fiquru olduğunu deməyə imkan verir (şək.5).

İt fiqurları Azərbaycanın Baba-Dərviş yaşayış yerindən məlumdur. Arxeoloji ədəbiyyatda qədim dövrdə itlərdən ovçuluqda (5, 194), mal-qara qorumaq (2, 143) üçün istifadə olunduğu barədə fikirlər mövcuddur. Başqa zoomorf fiqurlarının yalnız bədən hissələri tapıldığı üçün onların hansı heyvana mənsub olduğunu müəyyən etmək mümkün deyil (şək.6, 7).

Məlum olduğu kimi qədim Azərbaycan tayfaları atlardan həm nəqliyyat vasitəsi kimi, həm də qoşqu qüvvəsi kimi istifadə etmişlər. Arxeoloji tədqiqatlar və etnoqrafik mənbələrin tədqiqi göstərir ki, atçılıq Urmiya gölü ərazilərində geniş inkişaf etmişdir. Haftavan təpə yaşayış yerindən məlum olan gil fiqurlardan biri olduqca maraqlıdır. Bu, gildən düzəldilmiş at ayağıdır. Naxçıvanın ilk tunc dövrü abidələrindən də gil at fiqurları əldə edilmişdir. Lakin Haftavan qədim yaşayış yerindən əldə olunan at fiqurunun həmdövr abidələrdə analoji nümunələrinə təsadüf olunmamışdır.

Urmiya hövzəsi ərazilərdə tunc dövrü tayfalarının təsərrüfatında atçılığın böyük rol oynadığını təsdiq edən bir çox faktiki materiallar vardır. Haftavan təpənin saxsı məmulatları üzərində at rəsmlərinə rast gəlinir. Təsərrüfatın bir çox sahələrində atın işlədildiyi və hətta ilk mərhələlərdə at ətinin qida məhsulu kimi iştifadə olunmuşdur (4, 71). B.B.Piotrovski qeyd edirdi ki, «Ön Asiyanın Zaqafqaziya ilə həmsərhəd olan şimal əyalətləri hələ qədimlərdən Şərqdə öz at ilxıları ilə məşhur idilər» (6, 77).

Haftavan yaşayış məskəninin orta tunc dövrünün ikinci inkişaf mərhələsinə aid zoomorf gil fiqurların tədqiqatçısı M.Edvardz Hissar Təpə və Göy təpə analoji nümunələri ilə müqayisəli şəkildə təhlil etmişdir.Bu gil fiqurlar e.ə.1450-1350-ci illərə aid edilmişdir (7, 300).

Maraqlıdır ki, Urmiya gölü hövzəsinin tunc dövrü yaşayış yerlərindən əldə olunan gil fiqurlar içərisində quş formasında düzəldilmiş gil fiqurlara az rast gəlinir. Bu xüsusiyyət Şimali Azərbaycanın həmdövr yaşayış yerlərində də müşahidə olunur. Halbuki tunc dövrünə aid qəbir abidələrində gil quş fiqurlarına tez-tez rast gəlinmişdir. Gil quş fiqurlarının indiyə kimi yalnız qəbir abidələrindən tapılmasını onların axirət dünyası ilə bağlı oldması və dini ayinlərdə istifadə olunması ilə izah etmək mümkündür.

Dingətəpənin orta tunc dövrünə aid daş qutu qəbirlərində tapılan quş formalı gil qablar bu fikri təsdiq edir. Üç ədəd bitişik kasa quş fiqurunun bədən hissəsini əmələ gətirir. Quşun sinə hissəsi boyunca şaquli istiqamətdə cızılmış qoşa xəttlər, dimdikdən bir qədər aşağıda üfüqi xəttlə birləşdirilmişdir. Baş hissəsində gözləri bildirən iki oyuq vardır (şək.9).

Tunc dövrünün əvvəllərində gil fiqurlar dini ayinlərdə istifadə olunurdusa, bu dövrün son mərhələlərində onlar öz ilkin mənasını itirir və daha çox bəzək xarakteri daşıyır. Həsənlu təpənin son tunc və ilk dəmir dövrünə aid yaşayış yerlərində və qəbir abidələrində əldə olunmuş küpə tipli gil qabların üzərindəki qoç başı formasında düzəldilmiş qulplar buna misaldır (şək.10).

Qədim bədii sənətin maraqlı növlərindən biri olan heykəltaraşlıq tunc dövründən etibarən daha geniş inkişaf tapmışdır. Urmiyanın tunc dövrü abidələrindən tapılan, realistik üslubda düzəldilmiş zoomorf gil fiqurları tədqiqi e.ə.IV-I minilliklərdə Urmiya ətrafı ərazilərin faunasının öyrənilməsində xüsusi elmi əhəmiyyət kəsb edir.

Urmiya gölü hövzəsinin tunc dövrü yaşayış yerlərindən və qəbir abidələrindən əldə olunmuş gil fiqurların müqayisəli tədqiqi eyni zamanda qədim tayfaların dini-ideoloji dünyagörüşünü öyrənmək üçün əvəzedilməz mənbələrdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Абибуллаев О.А. Энеолитическая культура Азербайджана. МАД, Махачкала, 1961.
2. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. 1982.
3. Алекперов А.И. Терракота Древнего Азербайджана. - Баку, 1994.
4. Ашуров С.Щ. Нахчыванын илк тунъ дюврц керамикасы. 2002, (таб.XXXIX).
5. Богаевский Б.Л. Орудия производства и домашние животные Триполья.- М.:ОГИЗ,1937.

6. Исмайылов Г.С. Баба-Дярвиш абидясиндян тапылаг эил фигурлар. – Аз.ССР ЕА «Мярузяляри», 10, XVIII, 1962.
7. Пиотровский Б.Б. Археология Закавказья с древнейших времен до I тыс. до н.э.). Курс лекции. Л., 1943.
8. Пиотровский Б.Б. Развитие скотоводства в древнейшем Закавзаье.-СА, 1955, №23.
9. Едвардз M. Excavations in Azerbaijan. North-west Iran. 1983.

**Ismailova Sh.H.**

**BRONZE AGE CLAY FIGURINES IN URMIA**

***S U M M A R Y***

Clay animal figurines are to be found from the Bronze Age settlements of Haftavan tepe, Geoy tepe located on the territory around the Lake Urmia. These are the figurines of oxen, dogs, goats, sheep all standing, straight legged; some seems to be carrying a pair of horns.

Animal figurines in Urmia basin are investigated on the basis of comparative analysis. It must be mentioned that clay animal figurines are found amongst North Azerbaijan most prehistoric settlements like Kule Tepe, Baba-Dervish, etc.

There are different research opinions on the use of those figurines. Among of them more interesting seems to be belong to S.Ashurov who considered clay figurines to be amulets.

**Исмаилова Ш.Г.**

**ГЛИНЯНЫЕ ФИГУРКИ ЭПОХИ БРОНЗЫ ПРИУРМИЙСКОГО РЕГИОНА**

***Р Е З Ю М Е***

Глиняные фигурки были обнаружены в поселении Эпохи Бронзы Хафтавантепе и Гей тепе расположенные на территории бассейна озера Урмиия. Это фигурки быков, баранов, собак, козлов. Все фигурки изображены на ногах, некоторые с рогами. Глиняные фигуры изучены на основе сопоставительного анализа.

Надо отметить, что зооморфные фигуры были обнаружены из доисторических поселений Азербайджана, таких как Кюль тепе, Баба-Дервиш и др. Приводятся разные научные мнения об использования и происхождения глиняных фигур. Мнения С.Ашурова о том, что эти фигуры были использованы как амулеты, кажется нам более близким к реальности.




1, 2, 3 – Göytəpə – İlk tunc dövrü. 4-8 – Haftavan orta tunc dövrü.